**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ULDUZ İSMİXAN QIZI QULİYEVA**

# AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ İQTİSADİ-MƏDƏNİ ƏLAQƏLƏRİNDƏ SUMQAYITIN İŞTİRAKI (1991-2005-CI ILLƏR)

**İxtisas: 5503.02 - Vətən tarixi**

Tarix üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2015**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycanın beynəlxalq əlaqələri tarixi” şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor H.C.ƏLİBƏYLİ

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru Ə.Q.Qasımov
Tarix üzrə fəlsəfə doktoru F.F.Əhmədova

**Aparıcı müəssisə:** Bakı Dövlət Universiteti “Azərbaycan tarixi (humanitar fakültələr üzrə)” kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının “_27___” __05__ 2015-ci il tarixli iclasında, saat __00-da olacaqdır.

Ünvan: Az-1143, Bakı şəhəri, H.Cavid prospekti, 31

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar

Avtoreferat “_____”_______________2015-ci ildə göndərilmişdir

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə fəlsəfə doktoru C.Ə.BƏHRAMOV**

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan milli tarixşünaslığı üçün tədqiqi elmi, siyasi, beynəlxalq iqtisadi-mədəni əlaqələri baxımından ən aktual problemlərdən biri Azərbaycan Respublikasının ikinci sənaye şəhəri sayılan Sumqayıtın ölkəmizin beynəlxalq iqtisadi-mədəni əlaqələrində iştirakı problemlərinin öyrənilməsi məsələsidir.

Tədqiqat mövzusu üzrə respublikada və Sumqayıt şəhərinin mətbu orqanlarında çap edilmiş bir sıra məqalə və başqa-başqa mövzularda nəşr edilən əsərlərlə ona müəyyən qədər toxunulsa da, hələ bu günə kimi Azərbaycan Respublikasında güclü iqtisadi və mədəni imkanlara, böyük sənaye potensialına malik olan Sumqayıt şəhərinin sosial-iqtisadi və mədəni həyatının vəziyyəti və onun xarici bazarlara çıxmaq imkanlarını göstərmək, şəhərdə yerləşən müxtəlif növ sənaye müəssisələrinin məhsulları üzrə idxal və ixrac coğrafiyasını faktlar əsasında təhlil etmək, bir sözlə Sumqayıt şəhərinin 1991-2005-ci illərdə Azərbaycan Respublikasının beynəlxalq iqtisadi-mədəni əlaqələrində yerini müəyyənləşdirmək kimi problemlər ayrıca tədqiqat obyekti olmamışdır. Bu baxımdan 1991-2005-ci illərdə Azərbaycan Respublikasının beynəlxalq iqtisadi və elmi-mədəni əlaqələrində Sumqayıt şəhərinin yerini və rolunu vahid bir problem kimi tədqiq etmək, problemin ayrı-ayrı məsələlərini sistemləşdirmək və ümumiləşdirmək mühüm elmi əhəmiyyət kəsb edir.

Tədqiq olunan illərdə Azərbaycan Respublikasının ikinci sənaye şəhəri sayılan Sumqayıtın dünya dövlətləri ilə xarici əlaqələrinin tədqiqinə həsr olunmuş xüsusi əsər və elmi-tədqiqat işi yoxdur. Halbuki bu məsələlərin tədqiqinə həmişə ehtiyac olub və indi də vardır. Azərbaycan Respublikasının xarici əlaqələrində Sumqayıt şəhərinin rolu və yerinin tədqiqinə çox böyük ehtiyac duyulur.

Sumqayıt şəhəri sənaye müəssisələrinin istehsal etdikləri məhsulların keyfiyyət göstəriciləri dünya standartlarına tam cavab verdiyi üçün qısa müddətdə “Sumqayıt” markalı məhsulların sorağı yaxın-uzaq ünvanlardan gəlməyə başladı. Sumqayıt şəhərində sənayenin inkişafına böyük ümid bəsləyən Prezident İlham Əliyev:

"…Sumqayıtda fəaliyyət göstərən müəssisələrin və ya yeni yaradılacaq müəssisələrin məhsulları rəqabət qabiliyyətli olsun, dünyanın istənilən ölkəsinə ixrac edilə bilsin və beləliklə, biz xarici bazarlara keyfiyyətli hazır məhsulla daha da böyük həcmdə çıxa bilərik"[1] fikrini söyləyərək şəhərin böyük imkanları olduğunu qeyd etmişdir.

Sumqayıt şəhəri miqyasına görə Azərbaycan Respublikasının ikinci iri sənaye mərkəzidir. Şəhərin iqtisadiyyatı kimya və neftkimya, qara və əlvan metallurgiya, istilik-energetika, maşınqayırma və cihazqayırma, tikinti materialları və məmulatları, yüngül və yeyinti sənaye müəssisələrindən ibarətdir. Hal-hazırda Sumqayıt şəhər sənayesinin əsasını "Azərboru" Açıq Səhmdar Cəmiyyəti, "Azər-alüminium" Açıq Səhmdar Cəmiyyətinin "Sumqayıt-alüminium" İstehsalat Sahəsi, Etilen-Polietilen, Sintetik Kauçuk, Üzvi Sintez, Səthi Aktiv Maddələr, Mexaniki təmir zavodları, "Sumqayıt-məişət kimyası", "Sumqayıt-superfosfat", "Sumqayıt aşqarlar" və Sumqayıt kompressorlar Açıq Səhmdar Cəmiyyətləri təşkil edir[2].

Şəhərdə "Xəzər" Səhmdar Cəmiyyəti (şüşə istehsalı üzrə), "Sumqayıt Üst Trikotaj", "Sumqayıt Xovlu İplik" və "Sumqayıt-Toxucu" Səhmdar Cəmiyyətləri fəaliyyət göstərir. Sənaye müəssisələrinin əksəriyyəti özəlləşdirilmişdir[3].

Sumqayıt şəhərinin iqtisadiyyatının əsasını yuxarıda adlarını çəkdiyimiz müəssisələr təşkil etsə də, şəhərin iqtisadi əlaqələrində, əsasən, "Azərkimya" şirkəti tərkibinə daxil olan müəssisələr, yəni SK-Sintez Kauçuk, SAM-Səthi Aktiv Maddələr, Üzvi Sintez, Etilen-Polietilen zavodları və digər müəssisələrdən, Sumqayıt-superfosfat; "Azər-alüminium" Açıq Səhmdar Cəmiyyətinin "Sumqayıt Alüminium istehsalat Sahəsi", "Xəzər" Səhmdar Cəmiyyəti (şüşə istehsalı üzrə), yüngül sənaye sahələrindən isə əsasən "Sumqayıt xovlu iplik" Səhmdar Cəmiyyəti aparıcı rol oynayır.

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. "Azərbaycan" qəz., 2014, 26 fevral, № 42.

[2] Sumqayıt bələdiyyəsi 2000-2004. Xüsusi buraxılış. Sumqayıt nəşriyyatı. 2004, s.9.

[3] Yenə orada.

Azərbaycanın kimya elmi və sənayesi Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etməyə başladığı dövrdən bəri çox böyük inkişaf və yüksəliş yolu keçmişdir. Ötən illər ərzində respublikamızın bir çox sənaye şəhərlərində yeni kimya istehsalatları, sex və qurğuları yaradılmışdır ki, onlar ölkə iqtisadiyyatının potensialının artmasında və bütövlükdə kimya sənayesinin inkişafında əsas və həlledici rol oynamışdır.

Respublikanın kimya və neftkimya sənayeləri özünün spesifik xüsusiyyətlərinə görə, əsasən, Sumqayıt şəhərində formalaşmışdır. Onun inkişafının əsası Bakı şəhərinin neft-qazçıxarma və neft emalı sənayelərinin resursları sayəsində qoyulmuşdur. Sumqayıt neftkimya kompleksində əsas istehsal fondlarının 85%-ə yaxını cəmləşmişdir və "Azərkimya" dövlət konsernində birləşən müəssisələr sahələrin əmtəə məhsullarının ümumi həcminin 80%-dən çoxunu emal edir. Sahələrdə aşağıda göstərilən vacib məhsullar emal edilir: yüksək təzyiqli polietilen, kaustik soda, sulfanol məhlulu, alkilbenzol, sintetik yuyucu vasitələr, kükürd turşusu, fosfat gübrələri, kauçuklar və lateksələr, avtomotoşinlər, transporter lentləri, yastı və pazabənzər remenlər, bir istiqamətli liftli şüşələr və şüşə parçalar, "Ç" markalı kristal yod və yodlu kalium, hazır dərman vasitələri, ampulalarda dərmanlar, sarğı vasitələri və s.[1]

1998-ci ilin fevralında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yaponiyaya rəsmi səfəri zamanı ilk dəfə olaraq Yaponiya şirkətlərinin diqqəti Azərbaycan Respublikasının kimya sənayesinin inkişafına yönəldildi.

Həmin dövrdə Yaponiyanın "Eksimbank"ı ilə Azərbaycan hökuməti arasında Sumqayıt yüksək təzyiqli buxar generatoru qurğusunun və "Etilen-propilen" zavodunda elektroenerji istehsalının tikintilərinin maliyyələşməsi haqqında razılaşma imzalandı. EP-300 zavodunun yenidən qurulması üçün 3 il müddətində 2,5% illik güzəştlə 13 il müddətinə 9,150 mlrd. yen və ya 80 mln. ABŞ dolları

[1] Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, Elm, 2005, s.72.

məbləğində kredit ayrıldı. Burada layihə dəyəri - 86,5 mln. ABŞ dolları təşkil edir.[1]

Ümumilikdə götürdükdə "Azərkimya" şirkətinin tərkibinə daxil olan müəssisələrin yuxarıda adlarını çəkdiyimiz məhsullarının çox hissəsi ixracata gedir.

Hazırda dünyanın bir çox ölkələrinin iri şirkətləri ilə, o cümlədən ABŞ, Fransa, Böyük Britaniya, Almaniya, Rusiya, keçmiş Sovet məkanında olan respublikaların, Ermənistan istisna olmaqla, demək olar ki, hamısı ilə; İran, Türkiyə, Hindistan, Çin, Əfqanıstan, Pakistan, Yunanıstan, İsrail, Belçika, Polşa, Niderland və s. kimi ölkələrlə işgüzar əlaqələr qurulmuşdur.

Bütün bu qeyd olunanlar və Prezident İlham Əliyevin rəhbərliyi ilə sivil dünya birliyinə inteqrasiya xətti, ölkəmizin bütün regionlarında, o cümlədən Sumqayıtda gedən tərəqqi, müstəqil Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrində Sumqayıt sənayesinin rolu və yerinin tədqiqini, elmi araşdırmasını zəruri edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Mövzunun adından göründüyü kimi, dissertasiyanın xronoloji çərçivəsi 1991-2005-ci illərdə Azərbaycanın xarici əlaqələrində respublikanın ikinci sənaye şəhəri hesab edilən Sumqayıtın yeri və rolu tarixini əhatə edir. Bu dövr elə bir dövr idi ki, sovet imperiyasının zəncirvari əlaqələri artıq qırılmışdı və bu zaman ittifaq tərkibindəki xalqlar talelərini özləri qurmalı idi.

Azərbaycan Respublikası da öz xarici siyasət konsepsiyasını hazırladı və mərhələ-mərhələ həyatı keçirməyə başladı. Təbii ki, bu siyasətdə vaxtilə SSRİ sənayesinin əsasını təşkil edən Sumqayıt sənaye müəssisələri də az rol oynamadı.

1991-2005-ci illərdə Sumqayıt xarici ölkələrlə iqtisadi, elmi, mədəni əlaqələr qurmuşdur.

**Mövzunun öyrənilmə səviyyəsi.** Bəşəriyyətdə gedən bütün proseslər beynəlxalq aləmin bütün inkişaf mərhələlərində humanitar elm nümayəndələrinin daim diqqət mərkəzində olmuşdur.

Tədqiq edilən problemin tarixşünaslığını öyrənmək məsələsində bir çox çətinliklərlə rastlaşdıq. Bildiyimiz kimi, Azərbaycan Respub-

---

[1] Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin arxivi. F.1, siy.2, saxlama vahidi № 9, bağlama № 1.

likası və onun ikinci sənaye şəhəri sayılan Sumqayıt tədqiq etdiyimiz dövrə qədər SSRİ-dediyimiz dövlətin tərkibində olmuş və fəaliyyət göstərmişdir.

Mövzunun tarixşünaslığının təhlili göstərir ki, istər tədqiq etdiyimiz dövrdə, istərsə də ona qədərki Sumqayıt sənaye şəhəri kimi çox böyük əhəmiyyət kəsb edib. Sovet dövründə, demək olar ki, SSRİ-nin sənaye nəhəngləri dünyanın əksər yerlərinə öz məhsullarını ixrac edirdi. Amma sovet tarixşünaslığı bu məsələlərin araşdırılmasına dair əsərlərin yazılmasına qayğı göstərmirdi. Bütün bunlara baxmayaraq, yenə də Sumqayıtın öz salnaməçiləri, tarixçiləri bu işə biganə qalmadılar.

1991-ci ilə qədər SSRİ-nin xarici iqtisadi əlaqələrində Sumqayıt şəhərinin yeri və rolu ilə bağlı heç bir elmi əsər yazılmamışdır. Ancaq Sovet dövründə Sumqayıtla bağlı bir neçə əsər yazılmışdır ki, həmin əsərlərdə ötəri də olsa, Sumqayıtın sovet dövründəki xarici əlaqələrinə toxunulmuşdur. Bunlara misal olaraq aşağıdakı əsərlərin adlarını çəkə bilərik.

Z.A.Dulayevanın "Сумгаит-индустриальный гигант Азербайджана";[1] Həsən Sadıqovun "Dostluq şəhəri";[2] N.A.Balakişiyev və H.Y.Axundovun "Sumqayıt".[3] Bu kimi əsərlər, əsasən, sovet dövründə, yəni 1991-ci ilə qədərki tarixşünaslığı öyrənməyə qismən də olsa, əsas verir.

Z.A.Dulayevanın 1962-ci ildə nəşr olunan əsərində İttifaqın və Respublikamızın nəhəng sənaye mərkəzi olan Sumqayıtın yaranması, onun sosialist şəhəri kimi formalaşması haqqında geniş məlumat verilir. Bundan başqa, şəhərdə metallurgiya və kimya sənayesi müəssisələrinin yaradılması, onların ittifaq əhəmiyyətli müəssisələri və məhsulları haqqında konkret faktlara söykənən maraqlı göstəricilər diqqəti cəlb edir. Əsərdə Ittifaq üçün daha çox əhəmiyyət kəsb edən Sintez Kauçuk (SK), Alüminium, Superfosfat zavodlarının fəaliyyətinə xüsusi yer verilir. Lakin Sovet dövründə Sumqayıtın

---

[1] Дулаева З.А. Сумгаит–индустриальный гигант Азербайджана. Баку, изд. НАНА., 1962, 128 с.

[2] Sadıqov H.Ş. Dostluq şəhəri. Bakı, Azərbaycan, 1977, 79 s.

[3] Balakişiyev N.A., Axundov H.Y. Sumqayıt. Bakı, 1969.

xarici-iqtisadi əlaqələri məsələsinə isə bir neçə səthi verilən məlumatları çıxmaq şərtilə, demək olar ki, toxunulmamışdır.

H.Sadıqovun 1977-ci ildə nəşr olunan əsərində "Sovet gerçəkliyi, komsomolçular və gənclər şəhəri" adlanan Sumqayıt şəhərinin yaranması, Sumqayıtda müxtəlif millətlərin əzmi, fədakar əməyi, qəhrəmanlığı nəticəsində böyük bir sənaye kompleksinin formalaşması, Sumqayıt şəhər əhalisinin mənzil və məişət şəraiti, metallurq və kimyaçı kadrların hazırlanması məsələlərinə toxunulmuşdur.

Bundan başqa, Sumqayıt şəhərinin 1956-1976-cı illərdə Ukrayna, Rusiya, Gürcüstan, Belarusiya, Moldaviya, Özbəkistan, Litva, Tacikistan, ADR kimi ölkələrlə mədəni əlaqələrinə, az da olsa, yer verilmişdir. Lakin xarici-iqtisadi əlaqələrlə bağlı heç bir məlumat verilməmişdir.

N.A.Balakişiyev və H.Y.Axundovun əsərində isə, əsasən, şəhərin coğrafi mövqeyi, etimologiyası araşdırılır. Əsər 1969-cu ildə nəşr olunmuşdur.

Ancaq 1991-2005-ci illərdə də Azərbaycan Respublikasının xarici əlaqələrində Sumqayıt şəhərinin rolunu öyrənmək üçün məhdud da olsa, konkret bir əsər yoxdur. Lakin bir neçə əsər var ki, onların hər birində Azərbaycanın xarici-iqtisadi əlaqələrində Sumqayıtın iştirakına bir neçə faktla toxunulur. Bunlara isə, əsasən, Abbasov Çingiz Mikayıl oğlunun "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları",[1] Əli Həsənovun "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti";[2] Qalib Əhmədov və Beydulla Vəziroğlunun "Sumqayıt və sumqayıtlılar",[3] Kamran Hüseynovun "Quruculuğa həsr olunmuş ömür",[4] Həmid Alıyevin 2011-ci

---

[1] Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, 2005, 252 s.

[2] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan, 2005, 751 s.; Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti. Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1998, 315 s.

[3] Əhmədov Q.Ə., Bilalov B.V. Sumqayıt və sumqayıtlılar. Bakı, Zaman, 1999, 445 s.

[4] Hüseynov K.Ə. Quruculuğa həsr olunmuş ömür. Bakı, Azərbaycan Milli Ensiklopedik nəşr., 2001, 384 s.

ildə nəşr olunmuş “Sumqayıt şəhərinin tarixi”[1] və s. kimi əsərlərini misal gətirə bilərik. Bu əsərlərdə Azərbaycanın xarici iqtisadi əlaqələrində iştirak edən Sumqayıtın xarici iqtisadi əlaqələrinin mahiyyəti, elm və texnika sahəsində əməkdaşlığın xarakteri və istiqamətləri haqqında azacıq da olsa, faktlara toxunulur.

Abbasov Çingiz Mikayıl oğlunun 2005-ci ildə nəşr etdirdiyi “Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları” kitabında Sovet İttifaqının dağılmasından sonra respublikalar tərəfindən vahid-iqtisadi ərazinin itirilməsi, iqtisadi əlaqələrin dezinteqrasiyası, etnik və regional münaqişələrin iqtisadi sistemə təsiri, iqtisadiyyatın yenidən qurulması, 1998-ci ildə Yaponiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın qurulması, həmin tarixdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Yaponiyanın Baş Naziri Ryuntaro Xaşimito arasında “Azərbaycan Respublikası ilə Yaponiya arasında ticarət və iqtisadi sahələrdə əməkdaşlıq haqqında” birgə bəyannamə imzalanması, birgə bəyannamənin bazası əsasında Azərbaycan və Yaponiya dövlətləri, hər iki dövlətin xüsusi təşkilatları arasında iqtisadi əlaqələrin qurulması və inkişaf etdirilməsinə dövlət yardımının göstərilməsi, bu yardımlarda Sumqayıt şəhərində yerləşən Sumqayıt yüksək təzyiqli buxar generatoru qurğusunun və “Etilen-Polietilen” zavodunda elektroenerji istehsalının tikintilərinin maliyyələşməsi haqqında razılaşmanın mahiyyəti müəyyən qədər təhlil olunur.

Bundan başqa, müəllif Sumqayıt şəhərində yerləşən EP-300 zavodunun yenidən qurulmasında “Niçimen Korporeyşn”, “Çicda Korporeyşn” yapon korporasiyalarının iştirakı və eləcə də “Azərkimya” Dövlət şirkətinin yapon şirkətləri olan “Nisşo-İvai korporeyşn”, “Ci-Ci-Si” yapon şirkətləri ilə əməkdaşlıq məsələlərinə xüsusi toxunulur.

Əli Həsənovun 2005-ci ildə nəşr olunan “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti” kitabında az da olsa, Sumqayıt şəhərinin Azərbaycanın xarici-iqtisadi əlaqələrində iştirakına toxunulur. Belə ki, müəllif 1998-ci il fevralın 24-28-də

[1] Alıyev H.A. Sumqayıt şəhərinin tarixi. Bakı, Elm və təhsil, 2011, 544 s.

H.Əliyevin Yaponiyaya ilk rəsmi səfəri zamanı Azərbaycan Respublikası ilə Yaponiya arasında imzalanmış 8 sənədin məhz VII sənədində Azərbaycan Respublikası hökuməti və Yaponiyanın idxal-ixrac Bankı arasında Sumqayıt şəhərində yerləşən Etilen-Polietilen zavodunda EP-300 qurğusunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsi haqqında kredit sazişinin mahiyyəti açıqlanır.

Digər kitab isə Qalib Əhmədov və Beydulla Vəziroğlunun "Sumqayıt və sumqayıtlılar"[1] əsəridir. Bu əsər 1999-cu ildə Sumqayıt şəhərinin 50 illik yubileyinə töhfə olaraq yazılmışdır. Bu kitab əslində ensiklopedik yubiley nəşri sayılır. Burada Sumqayıtın istehsal portreti azacıq da olsa, göz önündə canlanır. Sovet sistemi dağılandan sonra şəhərin sosial-iqtisadi vəziyyəti, müəssisələrin öz fəaliyyətini bərpa etməsi və mədəniyyətin bütün sahələrindəki yeniliklər şərh olunur.

Digər bir ədəbiyyat isə Sovet dövründə Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini, Sumqayıt Şəhər Partiya Komitəsinin üç dəfə birinci katibi vəzifələrində işləmiş, ömrünü Sumqayıta həsr etmiş Kamran Hüseynovun 2001-ci ildə nəşr olunan "Quruculuğa həsr olunmuş ömür"[2] kitabıdır. Bu kitabda müəllif bir ömrün salnaməsini vermişdir. Bu salnamədə Sumqayıt şəhəri xüsusi yer tutur. Çünki müəllif ömrünün, demək olar ki, böyük bir hissəsini bu şəhərə həsr etmişdir. Əsərdə Sumqayıt şəhərinin salınması, Sumqayıtda ittifaq əhəmiyyətli müəssisələrin yaradılması prosesi, Sumqayıtın tarixi əraziləri sayılan Corat və Saray qəsəbələrinin tarixinə və s. kimi məsələlərə toxunulur. Ancaq bu kitabda da tədqiq etdiyimiz dövrdə Sumqayıtın xarici-iqtisadi əlaqələrinə, demək olar ki, toxunulmayıb.

Həmid Alıyevin "Sumqayıt şəhərinin tarixi" əsərində həm Sovet dövründə, həm də müstəqillik dövründə Sumqayıtın sosial-iqtisadi vəziyyəti və xarici əlaqələri məsələlərinə səthi formada toxunulmuşdur.

Kütləvi informasiya vasitələrindən "Azərbaycan kimyası", "Azərbaycan məktəbi", "Dirçəliş", "İqtisadiyyat və həyat", "Xalq Nəzarəti" kimi jurnallarda və "Azərbaycan", "Azərbaycan müəllimi",

---

[1] Əhmədov Q.Ə.,Vəziroğlu B. Sumqayıt və sumqayıtlılar. Bakı, 1999.

[2] Hüseynov K.Ə. Quruculuğa həsr olunmuş ömür. Bakı, 2001.

“Xalq qəzeti”, “Respublika”, “Sumqayıt”, “Sabah” və s. kimi qəzetlərdə azacıq da olsa, tədqiq etdiyim məsələlərə toxunulmuşdur. Ancaq yuxarıda adlarını çəkdiyimiz kütləvi informasıya vasitələrində də mənim tədqiq etdiyim məsələlər tam şəkildə öz əksini tapmamışdır.

Tədqiq olunan illərdə Azərbaycan Respublikasının ikinci sənaye şəhəri sayılan Sumqayıtın dünya dövlətləri ilə xarici əlaqələrinin tədqiqinə həsr olunmuş xüsusi əsər və elmi-tədqiqat işi yoxdur. Halbuki bu məsələlərin tədqiqinə həmişə ehtiyac olub və indi də vardır. Müstəqil Azərbaycan Respublikalarının xarici əlaqələrində Sumqayıtın rolu və yerinin tədqiqinə çox böyük ehtiyac duyulur.

**Tədqiqatın mənbə bazası.** Tədqiqat işi zəngin mənbəşünaslıq bazasına söykənir. Bu bazanın əsasını respublika hökumətinin xarici siyasətlə əlaqədar qəbul etdiyi normativ aktlar, təlimat xarakterli qərar və sənədlər, Azərbaycan Respublikası Milli Dövlət Arxivinin (ARMDA), Azərbaycan Respublikası Milli Dövlət Arxivinin Sumqayıt Filialının, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin, Sumqayıt şəhər Gənclər, İdman və Turizm İdarəsinin cari arxivi, Azəraliminium Səhmdar Cəmiyyətinin cari arxivi, “Azərkimya” Dövlət Şirkətinin cari arxivi, Səthi Aktiv maddələri zavodunun cari arxivi, Sumqayıt Superfosfat Açıq Səhmdar Cəmiyyətinin cari arxivi, Sintez-Kauçuk zavodunun cari arxivinin, Sumqayıt Özəl türk liseyinin cari arxivinin materialları[1] təşkil edir.

Dissertasiyanın yazılmasına güclü təsir göstərən və onun faktiki bazası rolunu oynayan əsas mənbə Sumqayıt şəhərində fəaliyyət göstərən sənaye müəssisələrinin cari arxiv materialları, xarici əlaqələrlə bağlı illik hesabat materialları, Sumqayıt Şəhər İcra Hakimiyyətinin nəzdində fəaliyyət göstərən beynəlxalq əlaqələr şöbəsinin xarici ölkələrlə partnyor əlaqələrə dair illik hesabatları, SDU-nun Sumqayıt Şəhər Gənclər, İdman və Turizm Baş idarəsinin xarici

---

[1] Azərbaycan Respublikası Milli Dövlət Arxivi (ARMDA); Azərbaycan Respublikası Milli Dövlət Arxivi (Sumqayıt Filialı); Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin cari arxivi; Azəraliminium Səhmdar Cəmiyyətinin cari arxivi. 2001-2005; “Azərkimya” Dövlət Şirkətinin cari arxivi. 2000-2003; Səthi Aktiv maddələri zavodunun cari arxivi. 2000-2005.

əlaqələrlə bağlı illik hesabatları, Sumqayıt Təhsil Şöbəsinin, Özəl türk litseyinin xarici elmi-mədəni əlaqələri ilə bağlı illik hesabatları[1] olmuşdur.

Dissertasiyanın yazılmasında dövri mətbuat-qəzet və jurnalların səhifələrində, internet saytlarında dərc olunmuş materiallar da çox mühüm rol oynamış və onun mənbəşünaslığının əsas amillərindən biri olmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsəd və vəzifələri 1991-2005-ci illərdə Azərbaycan Respublikasının xarici iqtisadi, elmi-mədəni əlaqələrində Sumqayıt şəhərinin yerini və rolunu müəyyən etmək, onun tarixini yazıb bu sahədə buraxılmış elmi və tarixi boşluğu doldurmaqdan ibarətdir. Mövzunun aktuallığı və həmin problemin müstəqil surətdə tədqiq edilib öyrənilmədiyini, bu gün tarix elmi qarşısında qoyulan yeni tələblər nəzərə alınaraq bu mövzunun tədqiqində bir çox məsələlərə xüsusi fikir verilərək tədqiqat məqsədilə aşağıdakı vəzifələr müəyyən olunmuşdur:

- 1991-ci il SSRİ-nin süqutundan sonra Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin əsas xüsusiyyət və xarakterini təhlil etmək;
- SSRİ dağılandan sonra Azərbaycan Respublikasının müstəqil dövlət kimi dünya iqtisadiyyatında tutduğu əlverişli təbii-coğrafi mövqeyini müəyyən etmək;
- Sumqayıt şəhərinin sosial-iqtisadi, mədəni bazasının vəziyyəti və onun xarici bazarlara çıxmaq imkanlarını araşdırmaq;
- Şəhərin xarici-iqtisadi əlaqələrində xüsusi rolu və çəkisi olan «Azərkimya» Şirkətləri Birliyinə daxil olan müəssisələrin, yəni SK-Sintez Kauçuk, SAM-Səthi Aktiv Maddələr, Üzvi Sintez, Etilen-Polietilen zavodlarının, bundan başqa, Sumqayıt-Superfosfat, "Azər-alimünium" Açıq Səhmdar Cəmiyyətinin, "Sumqayıt-alimünüim" istehsalat sahəsi, "Xəzər" Səhmdar Cəmiyyəti (şüşə istehsalı üzrə)

[1] Sumqayıt şəhər Gənclər, İdman və Turizm İdarəsinin cari arxivi. 1997-2005; Sumqayıt Superfosfat Açıq Səhmdar Cəmiyyətinin cari arxivi; Sintez-Kauçuk zavodunun cari arxivi; Sumqayıt Özəl türk liseyinin cari arxivi. Dünya Beynəlxalq Olimpiada və layihələrdə iştirakı 2001-2005-ci illərin yekunları üçün hazırladığı xüsusi məlumat.

yüngül sənaye sahələrindən isə, əsasən, "Sumqayıt Xovlu İplik" Səhmdar Cəmiyyətinin ABŞ, Almaniya, Türkiyə, Çexiya, Bolqarıstanla qurulan əlaqələrin tədqiqini vermək;

- 1998-ci ildə Yaponiyanın "Eksimbank"ı ilə Azərbaycan hökuməti arasında Sumqayıt yüksək təzyiqli buxar generatoru qurğusunun və "Etilen-politilen" zavodunda elektroenerji istehsalının tikintilərinin maliyyələşməsi haqqında imzalanmış güzəştli kredit razılaşmasını ətraflı təhlil etmək;

- Elmi əlaqələrdə Sumqayıt Dövlət Universitetinin Təhsil Nazirliyinin xətti ilə Almaniya, Hollandiya Universitetləri ilə sıx əməkdaşlığını, təhsil əlaqələrində isə Sumqayıt Təhsil Şöbəsinin yenə də Təhsil Nazirliyi ilə birlikdə bir sıra beynəlxalq təşkilatlarla Açıq Səhmdar Cəmiyyət İnstitutu Yardım Fondu, Norveç Qaçqınlar Şurası, YUNESKO-nun "Assosiativ məktəb layihəsi" UNİSEF-in "Ümidli gələcək", "Azərbaycan gənclərinin nailiyyəti", BMT-nin inkişaf proqramı, ABŞ-ın Dövlət Departamentinin Təhsil və Mədəniyyət Bürosunun Proyekt Harmoniya Təşkilatı, ABŞ Təhsil Şurası ilə əlaqələri, bundan başqa, Sumqayıt Təhsil Şöbəsinin Almaniya, İngiltərə, Yaponiya, Fransa, Polşa, Misir və s. kimi dövlətlərin təhsil proqramlarına qoşulması məsələlərinin, şəhərin 15 saylı məktəbinin AFR-in Lidviqshafen şəhərinin Karl Boş adına gimnaziyası ilə apardığı təhsil əlaqələrini təhlil etmək;

- Mədəniyyətin əsas sahələrindən olan idman əlaqələrində dünyanın ən mötəbər idman arenalarında keçirilən idmanın müxtəlif növlərinin Avropa, dünya birinciliklərində, Sumqayıt idmançılarının iştirakının təhlilini vermək;

- Almaniyanın Lidviqsafen, Çin Xalq Respublikasının Çyu Cou şəhəri, Ukraynanın, Çerkassı şəhərləri ilə Sumqayıt arasında dostluq və əməkdaşlıq əlaqələrini təhlil etmək.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiyanın nəzəri-metodoloji bazasına gəlincə araşdırma gedişində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində bir sıra elmi-nəzəri metodlardan istifadə edilmişdir. Bu əsasən konseptuallıq, obyektivlik və tarixilik prinsipləri, mənbə və tədqiqat materiallarına tənqidi yanaşma və onların müqayisəli təhlili, müxtəlif xarakterli cədvəllər tərtibi və

başqa metodlardan istifadə olunmuşdur. Eyni zamanda əldə olunmuş mənbə və materiallar janr və məzmununa görə sistemləşdirilərək məntiqi və xronoloji ardıcıllıqla təhlil edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ondadır ki, bu işdə ilk dəfə olaraq Azərbaycanın xarici iqtisadi əlaqələr sistemində Sumqayıtın iştirakına kompleks şəkildə yanaşılmışdır. Sumqayıt sənaye müəssisələrinin məhsulları artıq keçmiş SSRİ sənaye məhsulları kimi deyil, müstəqil Azərbaycan Respublikasının ikinci sənaye mərkəzi hesab edilən Sumqayıtın istehsal etdiyi məhsullar müstəqil formada dünya arenasına çıxır. Artıq dünyanın bəzi dövlətləri Sumqayıtın bir çox sənaye müəssisələrinin məhsullarına maraq göstərir. Tədqiqatın elmi yeniliyi onun məqsəd və vəzifələri nəzərə alınmaqla müəyyən edilir. Elmi yeniliyi aşağıdakı şəkildə xülasə etmək olar:

- ilk dəfə olaraq ölkəmizdə Sumqayıt şəhərinin xarici iqtisadi və elmi-mədəni əlaqələri dissertasiya çərçivəsində araşdırılır;
- Sumqayıtda yerləşən iri və digər sənaye müəssisələrinin məhsulları artıq keçmiş SSRİ sənaye məhsulları kimi deyil, müstəqil Azərbaycan Respublikasının ikinci sənaye şəhəri hesab edilən Sumqayıtın öz məhsulları kimi dünya arenasına çıxmaq imkanları tədqiq edilir;
- Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrində Sumqayıtın çəkisi hər bir müəssisə üzrə göstərilən statistik faktlar əsasında araşdırılır;
- dissertasiya işində ilk dəfə olaraq Azərkimya Şirkətlər Birliyinin tərkibinə daxil olan zavodların və digər sənaye müəssisələrinin müxtəlif məhsulları üzrə idxal və ixrac coğrafiyası dəqiq faktlar əsasında şərh edilir;
- ilk dəfə olaraq Sumqayıt Dövlət Universitetinin, Sumqayıt Şəhər Təhsil Şöbəsinin xarici əlaqələri təhlil və araşdırılır;
- Sumqayıt gənclərinin Avropa və digər beynəlxalq idman yarışlarında iştirakı ilk dəfə araşdırılır;
- ilk dəfə olaraq Sumqayıt şəhərinin Almaniyanın Lidviqsafen, Çin Xalq Respublikasının Çyu Cou şəhəri, Ukraynanın Çerkassı şəhərləri ilə dostluq və əməkdaşlıq əlaqələri tədqiq olunur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın materiallarından respublikanın xarici iqtisadi və mədəni əlaqələrinə dair monoqrafiyalar yazarkən, Azərbaycanın ali, orta ixtisas və digər təhsil müəssisələrində, Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində iştirakını həyata keçirən müvafiq və aidiyyəti olan təşkilatların praktik fəaliyyətində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsində yerinə yetirilmiş, iki dəfə müzakirə edildikdən sonra ilkin ekspertiza rəyləri nəzərə alınmaqla müdafiəyə layiq görülmüşdür.

Dissertasiya işinin mühüm aspektləri, məzmunu və elmi nəticələri ilə əlaqədar bir sıra məsələlər Azərbaycan Respublikası və Rusiya Federasiyasında nəşr olunan elmi jurnallarda və Bakı şəhərində keçirilən bir beynəlxalq konfrans materialında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi dörd paraqrafı özündə birləşdirən iki fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı, xronoloji çərçivəsi əsaslandırılmış, mövzunun öyrənilmə dərəcəsi araşdırılmış, mənbə bazası təhlil olunmuş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və quruluşu haqqında lazımlı məlumat verilmişdir.

**I fəsil "Azərbaycan Respublikasının Beynəlxalq iqtisadi-mədəni əlaqələri və Sumqayıt"** adlanır. Bu fəsildə Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin xüsusiyyətləri və Sumqayıt şəhərinin iqtisadi-mədəni potensialının beynəlxalq arenaya çıxmaq imkanları araşdırılır.

**I fəslin 1-ci paraqrafı: "Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin səciyyəvi xüsusiyyətləri"** adlanır. Burada tarixi hadisələr və bundan irəli gələn nəticələrin şərhi verilmişdir.

SSRİ-nin süqutunun dünyada, həmçinin bölgədə və Azərbaycan Respublikasında siyasi və iqtisadi proseslərə təsir məsələləri araşdırılır. Göstərilir ki, keçmiş SSRİ məkanında, Cənubi Qafqaz da daxil olmaqla, baş verən ciddi siyasi dəyişikliklər - müstəqil respublikaların meydana gəlməsi çox böyük sürətlə beynəlxalq münasibətlərdə də əksini tapmış oldu. Cənubi Qafqaz respublikalarının Sovetlərdən ayrılması ilə bu bölgə dünyanın aparıcı dövlətlərinin diqqət mərkəzinə keçmiş oldu. Yeni yaranan respublikalar artıq müstəqil xarici siyasət xətti yeritməli, dünyada bərqərar olmuş beynəlxalq duruma müvafiq strategiyalarını qurmalı idilər.

Belə ki, 1991-ci ildə SSRİ-nin süqutundan sonra vahid koordinasiya mərkəzinin itirilməsi SSRİ-nin ərazisində yaranmış gənc müstəqil dövlətlərə, o cümlədən Azərbaycan Respublikasına beynəlxalq əməkdaşlıq dairəsini genişləndirmək imkanı yaratdı.

Əlverişli geosiyasi mövqeyi, zəngin iqtisadi potensialı olan Azərbaycan Respublikasının milli dövlətçilik maraqlarına cavab verən səmərəli və məqsədyönlü xarici siyasət kursunun həyata keçirilməsi üçün ilkin əlverişli zəmin yaratdı. Lakin mövcud ilkin potensialı və əlverişli zəmini reallaşdırmaq, onlardan maksimum bəhrələnmək beynəlxalq aləmdə cərəyan edən proseslərin ciddi araşdırılmasını, Azərbaycan Respublikasının maraqlarına uyğun düşünülmüş, hərtərəfli əsaslandırılmış və bütün incəlikləri nəzərə alan addımların atılmasını tələb edirdi.

Azərbaycan Respublikasında müharibə vəziyyəti Ermənistanın hərbi təcavüzü ilə dərinləşən ciddi siyasi və iqtisadi problemlərin mövcud olması dövlətin diplomatiya, siyasəti qarşısında çox mühüm və məsuliyyətli vəzifələr qoyurdu. Ən əsas vəzifələrdən biri ondan ibarət idi ki, beynəlxalq birliyi müstəqil Azərbaycan Respublikası ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması zəruriliyinə inandırmaq lazım idi. Çünki ilk addım kimi bu məsələ çox vacib idi. Bir sözlə, mövcud dövlətçilik, Azərbaycanın müstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq təminat almaq üçün çox ciddi səylər

etməli və gərgin fəaliyyət göstərməli idi. Çox çətinliklə də olsa, dövlət bu vəzifənin öhdəsindən tam olmasa da, gələ bildi. Müstəqil Azərbaycan dövləti çətin və mürəkkəb ziddiyyətli bir dövrdə xarici siyasətini özü həyata keçirməyə başladı.

Azərbaycan dövləti öz xarici siyasətini dünya birliyinin qəbul etdiyi normalardan irəli gələn prinsiplərə əsaslanan tamamilə yeni bir təməl üzərində qurdu. 1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən H.Əliyev 1993-cü oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən andiçmə mərasimindəki çıxışında ölkənin xarici siyasət məsələsinə münasibət bildirərək qeyd etmişdir ki, "Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur. Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Xarici siyasətimizdə əsas vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverienliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa olsun, xarici siyasət vasitəsilə təmin etməyə çalışmalıyıq".[1]

Siyasi sahədə Azərbaycan dövlətinin xarici siyasətinin əsas mahiyyəti beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənən sivilizasiyalı dövlətlərarası münasibətlərə hörmət etməkdən, beynəlxalq, regional və dövlətlərarası münaqişəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, bütün dövlətlərin hüquqlarına hörmətlə yanaşmaqdan ibarət olmalıdır.

[1] Əliyev H.Ə. Müstəqillik yollarında. I kitab, Bakı, Azərbaycan, 1997, s.18.

İqtisadi sahədə qarşılıqlı-faydalı iqtisadi əməkdaşlıq yaratmaqdan, dünya ölkələrinin imkanlarından Azərbaycan iqtisadiyyatının, Azərbaycan Respublikasının imkanlarından isə dünya dövlətlərinin mənafelərinin təmsin olunması üçün səmərəli istifadə etməkdən, iqtisadi maraqların uzlaşdırılmasından, qarşılıqlı təminat və onun qorunmasından ibarət olmalıdır.[1]

Mədəni sahədə dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan, mənəvi sərvətlərin maneəsiz, azad və demokratik mübadiləsindən və s. ibarətdir.

Bir sözlə, Azərbaycan xalqı siyasi, iqtisadi, mədəni sahədə sivilizasiyalı dövlətlərarası münasibətlər qura bildi. Azərbaycan Respublikasının xarici siyasəti bir neçə istiqamətdə həyata keçirilir. Respublikamızın xarici siyasətində MDB iştirakçısı olan dövlətlərlə münasibətlər, ABŞ-la, Avropa, Asiya və Afrika dövlətləri ilə əlaqələr, beynəlxalq və məhəlli təşkilatlarla münasibətlər əsas istiqamətlərdir.

Azərbaycan dövləti MDB iştirakçısı olan dövlətlərlə əlaqələrini diplomatik fəaliyyətin müxtəlif formaları ilə yarışmalar, qarşılıqlı səfərlər, siyasi, iqtisadi, elmi-texniki, mədəni, humanitar və başqa sahələrə aid sənədlərin imzalanması, müzakirələr, konfranslar, məsləhətləşmələr və s. saxlayır.[2]

Dünyanın nəhəng siyasi güc mərkəzi və fövqəl dövlətlərindən olan ABŞ-la münasibətlər müstəqil Azərbaycan dövlətinin xarici siyasətində əsas və önəmli istiqamətlərdən biri idi.

Məşhur publisist Ç.Kraxxammer ilk dəfə "təkqütblü dünya" anlayışını tətbiq etmiş, yeganə nəhəng dövlət hesab etdiyi ABŞ haqqında yazırdı: "Amerikanın üstünlüyü ona əsaslanır ki, o, hərbi, diplomatik, siyasi gücə malik olan yeganə dövlətdir ki, özü seçdiyi istənilən regiondakı, istənilən konfliktdə həlledici iştirakçı ola bilər".[3]

---

[1] Məmmədov Z.S. Azərbaycan Respublikasının xarici, iqtisadi əlaqələri. Bakı, Kooperasiya, 2004, s.31.

[2] Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi. Bakı, Təhsil EİM, 2003, s.468.

[3] Bayramova B.Ə. ABŞ-ın xarici siyasətində Azərbaycanın yeri, iki dövlət arasındakı qarşılıqlı maraqlar. / Azərbaycan Tarix Qurumu. Azərbaycan Respub-

Məhz bu amili əsas tutan Azərbaycan Respublikası Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, ərazi bütövlüyünün təmin olunmasında ABŞ-ın yardımından bəhrələnmək ümidi ABŞ-la əlaqələri Azərbaycanın birinci dərəcəli vəzifəsi hesab edirdi.

1992-2005-ci illərdə Azərbaycan-ABŞ münasibətləri diplomatik fəaliyyətin müxtəlif formaları: ölkə başçılarının məktubları, telefon danışıqları, xarici işlər nazirlərinin görüşləri, siyasi məsləhətləşmələr, müzakirələr, qarşılıqlı səfərlər, o cümlədən iş adamlarının əlaqələri, iri şirkətlərin fəaliyyəti və başqa formalarda saxlanılır.[1]

Müstəqil dövlət kimi Azərbaycan Respublikasının xarici siyasətində Qərbi Avropa dövlətləri ilə münasibətlərdə tutduğu yer bir sıra amillərlə səciyyələnir: Əvvəla, Avropa dövlətlərinin əksəriyyəti dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri sırasına daxildir. Dünya bazarlarında başqa güc mərkəzləri ilə kəskin rəqabət aparır, qabaqcıl texnologiyanı və mallarını başqa ölkələrdə yerləşdirə bilir və bir sözlə, Avropa iqtisadi cəhətdən nümunə rolunu oynayan qitədir; İkincisi, dünyanın siyasi və hərbi cəhətdən qüdrətli dövlətləri kimi Avropa ölkələri planetdəki ab-havaya, dünya siyasətinə təsir göstərirlər. Münaqişələrin həllində Avropa dövlətlərinin sözü həlledici və təsirli olur.[2]

Azərbaycan Respublikası öz xarici siyasət fəaliyyətində Asiya və Afrika ölkələri ilə münasibətlərə xüsusi önəm verir.

1992-2005-ci illər ərzində Afrika və Asiya qitələrində yerləşən ölkələrlə müxtəlif istiqamətli əlaqələr qurulmuş, görüşlər keçirilmiş, müzakirələr aparılmış, dövlətlərarası münasibətləri tənzimləyən hüquqi normativ sənədlər imzalanmışdır.

Burada diqqəti cəlb edən əsas məsələlərdən biri də dünyanın aparıcı təşkilatları ilə əlaqələrin qurulmasıdır. Göstərilir ki, Azərbaycanın dünya birliyinə sıx inteqrasiya olunmasında BMT, Avropa

---

likası: uğurlar və perspektivlər. Beynəlxalq elmi konfransın materialları. 16 noyabr 2011-ci il.

[1] Qasımov M.C. Azərbaycanın xarici siyasəti (Konsepsiya məsələləri). Bakı, Mütərcim, 1997, s.60.

[2] Yenə orada, c.48-49.

Şurası, ATƏT, İKT, NATO və s. beynəlxalq təşkilatlar mühüm rol oynayırlar .[1]

2012-ci il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Xalq qəzeti"nə verdiyi müsahibədə beynəlxalq təşkilatlarla Azərbaycanın əlaqəsini aşağıdakı formada təsvir etmişdir: "Biz beynəlxalq təşkilatlarda prinsipial mövqeyimizi həmişə olduğu kimi ifadə edirik. Hər bir məsələ ilə bağlı bizim prinsipial, birmənalı mövqeyimiz vardır. Bu mövqe ədalətə, beynəlxalq hüquqa və Azərbaycan xalqının milli maraqlarına əsaslanır. Azərbaycan tərəfindən aparılan xarici siyasət nəticəsində bu gün dünya miqyasında bizə çox böyük inam və hörmət vardır".[2]

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini elan edəndən sonra dünya dövlətləri içərisində özünə yer tapması baxımından xarici siyasətində beynəlxalq təşkilatlara üzv olmağa, onlarla əməkdaşlıq etməyə xüsusi diqqət yetirdi.

Bir sözlə, Azərbaycan Respublikasının xarici siyasətində prioritet istiqamətlərini düzgün müəyyənləşdirməsi, dünyanın ayrı-ayrı dövlətləri ilə yaratdığı əlaqələrin, beynəlxalq təşkilatlarla, bu qurumlara üzv olan dövlətlərlə əməkdaşlığın uğurlu nəticələri ölkəmizi dünya birliyi müstəvisində söz və nüfuz sahibi etmişdir.

**I fəslin 2-ci paraqrafı** "Sumqayıtın iqtisadi-mədəni potensialı və onun beynəlxalq arenaya çıxmaq imkanları" adlanır. Burada 1925-ci ildə Moskvada Ümumittifaq Kommunist Partiyasının XIV qurultayının keçirilməsi və sosialistcəsinə sənayeləşdirmə siyasətinin elanı, bu siyasətə əsasən Sumqayıt şəhərinin salınması zərurəti açıqlanır.

Abşeron yarımadasının şimalında - Xəzər dənizinin sahilində salınacaq Sumqayıt şəhərinin ilk layihəsi, tikiləcək sənaye komplekslərinin harada yerləşməsi, onların əsasında meydana gələn yaşayış məntəqəsi, şəhər hissəsinin hansı formada müəyyənləşdirilməsi faktlara əsaslanaraq göstərilir.

---

[1] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan, 2005, s.437.

[2] Mirzəbəyli İ. Azərbaycanın xarici siyasəti ölkəmizin milli maraqlarına xidmət edir. "Xalq qəzeti" qəz., 9 iyun 2012, № 126(27056).

Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti 8 dekabr 1936-cı il № 2507 qərarı ilə Sumqayıtda sosialist şəhərinin layihələşdirilməsi məsələsini Azərbaycan sənaye birliyinə həvalə etdi[1].

Burada sənaye komplekslərinin harada yerləşməsi, onların əsasında meydana gələn yaşayış məntəqəsi, şəhər hissəsi elə qurulmalı idi ki, zavodların təchizat məsələsi, su, kanalizasiya, elektrik xətləri, rabitə, dəmiryol nəqliyyatı bir-birinə maneçilik törətməsin. Onun üçün də ən əlverişli yer nəzərdə tutulan Sumqayıt kimi boş ərazi idi. Bu ərazinin üstünlüyü çox idi. Birincisi, o, Bakıya yaxın idi. Onun inkişafına Bakının köməyi çox vacib idi. İkincisi, onlar Samur-Dəvəçi kanalından gələn sudan istifadə edə bilərdilər. Üçüncüsü, bu ərazi magistral yollara yaxın idi. Bu faktlar nəzərə alınaraq geoloji cəhətdən Sumqayıtda elmi axtarış işlərinin aparılması, yer quruluşunun forması, torpağın geoloji cəhətdən möhkəmliyi, şoranlığı, yeraltı suların səviyyəsi öyrənilməyə başlandı. Ən vacibi kimya zavodlarının tikilməsi məsələsi idi. Onların tüstüsünün istiqaməti elə təyin edilməli idi ki, o, Sumqayıtın yaşayış məntəqələrində və Bakıda havanı korlamasın.

Kimya zavodları elə bir cərgədə qurulmalıydı ki, onların bir-birinə, eləcə də metallurgiya zavodlarına, yaşayış məntəqələrinə mənfi təsiri olmasın. Bu işlər mükəmməl surətdə təcrübədən keçirildi, küləyin (xəzri, gilavar) ən çox əsmə yönləri çoxillik həyatı müşahidələr üzrə nəzərə alındı.[2]

Moskvadan və Leninqraddan bura layihəçilər gəldi. Onlar Azərbaycan mütəxəssisləri ilə birlikdə texniki və təşkilatı məsələlərin həllində gecə və gündüz çalışdılar. SSRİ-nin hər yerindən gənclər axışıb «zərbəçi komsomol tikintisi» elan edilmiş gələcəyin şəhərini yaratmağa gəldilər.

Eyni zamanda bu paraqrafda göstərilir ki, Sumqayıtın tikintisində şanlı komsomolun böyük rolu olub. Bunu inkar etmək olmaz. Bu, həqiqətən, belədir. Lakin bir fakt adətən nəzərdən qaçırılır. Bunu da

---

[1] ARMDA, f.411, siy.28, saxlama vahidi № 2, v.7.

[2] Hüseynov K.Ə. Quruculuğa həsr olunmuş ömür. Bakı, Azərbaycan milli ensiklopedik nəşr. 2001, s.33.

başa düşmək olar. Sovet ideologiyası bu haqda danışmağa qadağa qoymuşdur. Belə ki, otuzuncu illərdə Sumqayıta Sibirin bir çox şəhərlərindən, o cümlədən Nijni-Tagildən, Kurqandan 5000 dustaq gətirmişdilər.[1] Bu dustaqlar ən ağır işlərə cəlb edilmişdir.

1941-ci ilə qədər ildırım sürəti ilə tikilən Sumqayıt obyektlərində tikinti faşist Almaniyasının müharibəyə başlaması nəticəsində dayandırıldı.

Sumqayıtda istehsal olunacaq çox önəmli strateji əhəmiyyəti olan sənaye məhsullarının ittifaq üçün vacibliyini nəzərə alan dövlət müdafiə Komitəsi 1944-cü ildə əmr etdi ki, Sumqayıtda inşası dayandırılmış zavodların tikintisinə yenidən başlanılsın.[2]

Təbii ki, yuxarıda qeyd edildiyi kimi, Sumqayıtı təkcə dustaqlar tikməyib. Onun tikintisində adlı-sanlı əmək adamları, bacarıqlı rəhbər işçilər də olub. Sumqayıt şəhər partiya komitəsinin ilk birinci katibi Yəhya Məmmədov, şəhər partiya komitəsinin üç dəfə birinci katibi vəzifəsində çalışmış Kamran Hüseynovun şəhərə rəhbərlik etmiş digər şəxslərdən Hüseyn Axundovun, Zülfi Hacıyevin, N.Balakişiyevin də xidmətləri az olmamışdır.

İlk təvəllüd günündən sabaha inamla addımlayan Sumqayıtın ilk qurucu sakinləri həm də respublikamızın müxtəlif bölgələrindən axışıb gələn inşaatçılar olmuşdur. Aslan Osmanov, Heydər Ağayev, Məzahir Abdullayev, Ərşad Rəhimov, Sabir Rzayev, İslam İsayev, Baxış Aslanov, Sərvər Bədəlbəyli, İmamverdi Vəliyev və s, metallurqlardan Məzahir Qasımov, Zəminə Həsənova, Dadaş Dadaşov, ziyalılardan Ə.Abdullayev, H.Aslanov, A.Əfəndiyev, M.Salahov, maarif xadimlərindən S.Şərifov, X.Verdiyeva, S.Səmədzadə, Y.Bünyadovun adları şəhərin şanlı səhifələrini təşkil edir.[3]

Bir faktı da xüsusi vurğulamaq lazımdır ki, SSRİ hökumətinin Sumqayıtda şəhər salmaq fikri yox idi. Sumqayıtda tikiləcək zavodların hamısı Moskvaya tabe idi. Ümumittifaq nazirliklərinin heç biri Sumqayıtda şəhər salınmasına razı deyildi. Hamısı bir ağızdan deyir-

---

[1] Məmmədov E. Sumqayıt mənim üçün bütün şəhərlərdən əziz və doğmadır. "Sabah" qəz., 30 noyabr 2004.

[2] Hüseynov K.Ə. Göst. əsəri, s.131.

[3] Əhmədova X. Sumqayıtla fəxr edirəm. "Sabah" qəz., 30 noyabr 2004.

dilər ki, zavodun yanındakı boş yerdə kazarma kimi üç-dörd yataqxana tikilsin, fəhlələr orada yaşasınlar, fəhlələri iş yerinə aparıb-gətirməyə ehtiyac olmasın. Vəssalam. "Əgər Azərbaycana şəhər lazımdırsa, qoy kommunal təsərrüfat naziri gedib şəhərini tiksin".[1]

Lakin Kamran Hüseynov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mir Cəfər Bağırova bu layihənin perspektivsizliyini sübut etmiş və onu inandıra bilmişdir.

Nəhayət, SSRİ hökuməti 1938-ci ildən fəhlə qəsəbəsi kimi fəaliyyət göstərən Sumqayıtın şəhərə çevrilməsi üçün xüsusi qərar çıxardı.

1949-cu ildə noyabrın 22-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sumqayıt qəsəbə tipli yaşayış məntəqəsindən respublika tabeliyində olan şəhərlər sırasına daxil edilmişdi.[2]

Bir sözlə, yuxarıda verilən bir neçə faktla sənayeləşmənin əsl mahiyyəti Sumqayıt şəhərindəki müəssisələrin sovet iqtisadiyyatının tələbatına təmin etmək məqsədilə yaradılması sübuta yetirilir.

SSRİ-nin süqutundan sonra bu sahələrin işindəki ahəngdarlıq pozulmuş, iqtisadi-təsərrüfat əlaqələri qırılmış və bu iri sənaye kompleksləri öz istehsal güclərini tam olmasa da müəyyən qədər itirmişdir. 1990-cı illərin ikinci yarısında təmin olunan siyasi və iqtisadi sabitliyin nəticəsində Sumqayıtın iqtisadi potensialının bərpası mümkün olmuşdur.

Məhsul istehsalı həcminə və miqyasına görə Sumqayıt Azərbaycan Respublikasının ikinci iri sənaye mərkəzidir. Şəhərin iqtisadiyyatı kimya və neftkimya, qara və əlvan metallurgiya, istilik, energetika, maşınqayırma və cihazqayırma tikinti materialları və məmulatları, yüngül və yeyinti sənaye müəssisələrindən ibarətdir[3]. Şəhərdə geniş infrastruktura malik olan əsas və köməkçi müəssisələrdən ibarət olan iqtisadiyyat mövcuddur. Məhz bu imkanlar hesabına Sumqayıt şəhərindəki müxtəlif növ sənaye müəssisələrinin istehsal

---

[1] Hüseynov K.Ə. Quruculuğa həsr olunmuş ömür. Bakı, 2001, s.99.

[2] Hüseynova M. Hər sənəd tarixdir. "Sumqayıt" qəz., 2004, 23 oktyabr, №6465 (7245).

[3] Sumqayıt bələdiyyəsi. 2000-2004. Xüsusi buraxılış. Sumqayıt nəşriyyatı. 2004.

etdiyi məhsullar Azərbaycan Respublikasının idxal-ixrac əməliyyatlarında xüsusi çəkiyə malikdir.

Şəhər sənayesinin əsasını təşkil edən "Azərboru" Açıq Səhmdar Cəmiyyəti, "Azəralüminium" Açıq Səhmdar Cəmiyyətinin "Sumqayıtalüminium" İstehsalat Sahəsi, Etilen-politen, Sintetik Kauçuk, Üzvi Sintez, Səthi Aktiv-Maddələr, Mexaniki Təmir zavodları, "Sumqayıt-Məişət Kimyası", "Sumqayıt-Superfosfat", "Sumqayıt-Aşqarlar" və Sumqayıt Kompressorlar Açıq Səhmdar Cəmiyyətləri, "Neftqazavtomat" Elm İstehsalat Birliyi, "Xəzər" Səhmdar Cəmiyyəti (şüşə istehsalı üzrə), "Sumqayıt Üst Trikotaj", "Sumqayıt Xovlu İplik" və "Sumqayıt Toxucu" Səhmdar Cəmiyyətlərinin fəaliyyət istiqaməti və Şəhər iqtisadiyyatına təsir forması və beynəlxalq arenaya çıxmaq imkanları müəyyənləşdirilir.

Eyni zamanda, mədəni sahədə də Sumqayıtdakı müxtəlif növ mədəni məişət obyektlərin yaranması və inkişafı nəticəsində mədəni əlaqələrin qurulması məsələləri ön plana çəkilir.

**"Sumqayıt şəhərinin Azərbaycan Respublikasının beynəlxalq iqtisadi və mədəni əlaqələrində iştirakının əsas istiqamətləri"** adlanan **II fəslində** əsasən Sumqayıtın Azərbaycan Respublikasının xarici iqtisadi və mədəni əlaqələrində iştirak məsələləri araşdırılır.

Bu fəsildə xarici əlaqələrdə xüsusi çəkisi olan müəssisələrin hər birinin ölkələr üzrə idxal-ixrac əməliyyatları konkret faktlara söykənilərək təhlil olunur. Hətta Azərkimya Dövlət Şirkətinin tərkibinə daxil olan SK zavodunun iyirmi ölkəyə: Rusiya, Ukrayna, Belorusiya, Moldova, Latviya, Özbəkistan, Türkmənistan, Bolqarıstan, Türkiyə, Avstriya, İtaliya, İspaniya, Polşa, Belçika, İsveç, İran, Hindistan, Dubay və s. ixrac olunan məhsullarının 2001-2002-ci illərdə ölkələr üzrə siyahısını əks etdirən cədvəl materialları sübut edir ki, təkcə bu müəssisə xarici əlaqələrdə nə qədər önəmli rol oynayır.

**II fəslin 1-ci paraqrafı "Sumqayıt və xarici iqtisadi əlaqələr"** adlanır. Burada Sumqayıtda yerləşən müxtəlif növ sənaye müəssisələrinin istehsal etdiyi məhsullara dünyada böyük tələbatın olması açıqlanır ki, bu da Sumqayıtın Azərbaycan Respublikasının xarici-iqtisadi əlaqələrindəki çəkisini artırır.

Bu paraqrafda göstərilir ki, Azərbaycan Respublikasının iqtisadi sahədə yeritdiyi siyasət, qarşılıqlı-faydalı əməkdaşlıq yaratmaqdan, dünya ölkələrinin imkanlarından Azərbaycan Respublikası iqtisadiyyatının və onun imkanlarından isə dünya dövlətlərinin mənafelərinin təmsil olunması üçün səmərəli istifadə edilməsindən, iqtisadi maraqların uzlaşdırılmasından, qarşılıqlı təminat və onun qorunmasından ibarətdir.

Qeyd olunur ki, iqtisadiyyatın əsasını bir çox müəssisələr təşkil etsə də, şəhərin iqtisadi əlaqələrində, əsasən, keçmiş "Azərikimya" şirkəti tərkibinə daxil olan müəssisələr, yəni SK-Sintez Kauçuk, SAM-Səthi Aktiv Maddələr, Üzvi Sintez, Etilen-politen zavodları və digər müəssisələrdən; Sumqayıt-superfosfat; "Azəralüminium" Açıq Səhmdar Cəmiyyəti, "Sumqayıt Alüminium İstehsalat Sahəsi"; "Xəzər" Səhmdar Cəmiyyəti (Şüşə istehsalı üzrə); yüngül sənaye sahələrindən isə əsasən, "Sumqayıt Xovlu İplik" Səhmdar Cəmiyyəti aparıcı rol oynayır. Ona görə də, əsasən, bu müəssisələrin beynəlxalq-iqtisadi əlaqələrinə daha çox yer verilib.

Sumqayıtın Azərbaycanın xarici-iqtisadi əlaqələrindəki rolu yüksək qiymətləndirilir və iqtisadi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 25 iyun tarixli 468 №-li fərmanı ilə təsdiq edilmiş "Xarici İqtisadi Əlaqələr Nazirliyinin Əsasnaməsi"nin müddəalarına uyğun olaraq, xarici iqtisadi siyasətin məqsədyönlü və səmərəli həyata keçirilməsi məqsədilə xarici dövlətlərlə iqtisadi əməkdaşlıq sahəsində Nazirlər Sovetinə təkliflər təqdim edilmişdir. [1] Fərman qüvvəyə minəndən sonra qısa bir zamanda müsbət göstəricilər nəzərə çarpmışdır.

**II fəslin "Azərbaycan Respublikasının mədəni əlaqələrində Sumqayıtın iştirakı"** adlanan **2-ci paraqrafında** – Şəhər Təhsil Şöbəsi Təhsil Nazirliyinin xətti ilə bir sıra beynəlxalq təşkilatlarla – Açıq Cəmiyyət İnstitutu Yardım Fondu, Norveç Qaçqınlar Şurası, YUNESKO-nun "Assosiativ məktəb layihəsi", UNİSEF-in "Ümidli gələcək", "Azərbaycan gənclərinin nailiyyəti", BMT-nin inkişaf proqramı, ABŞ-ın Dövlət Departamentinin Təhsil və Mədəniyyət Bürosunun Proyekt Harmoniya müəyyən proqramların həyata

---

[1] Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Arxivi, f.6, s.v.213, bağ.49.

keçirilməsində birgə fəaliyyət göstərir və əlaqələri genişləndirir. Müasir təlim texnologiyalarının tətbiqi ilə bağlı müntəzəm olaraq treninqlər keçirir.[1]

1999-2004-cü illər ərzində 34 nəfər müəllim ABŞ, Almaniya, İngiltərə, Yaponiya, Fransa, Polşa, Misir kimi dövlətlərin təhsil proqramlarına qoşulmuş, bu proqramlarda fəal iştirak edərək qalib gəlmiş və həmin ölkələrin təhsil müəssisələrində təcrübə keçmişlər.[2]

Sumqayıt Özəl Türk Liseyi 1992-ci ildə fəaliyyətə başlasa da, Dünya və Beynəlxalq Olimpiada və layihələrdə iştirakı 1997-ci ildən başladı. Belə ki, 1997-ci ildə liseyin şagirdləri "Beynəlxalq fizika olimpiadası"nda, "Dünya riyaziyyat olimpiadasında", "Beynəlxalq türk dili olimpiadasında", "Biologiya beynəlxalq layihəsi", "Beynəlxalq ekologiya layihəsi" və "İnformatika beynəlxalq layihəsi" yarışmalarında iştirak edərək fəxri nailiyyətlər əldə etmişlər.[3]

Sumqayıt şəhərinin Almaniyanın Lüdviqshafen, Çin Xalq Respublikasının Çuçou, Ukraynanın Çerkassk, İtaliyanın Bari və Genuya, Türkiyənin Ceyhan, Gürcüstanı Respublikasının Rustavi, Belarusun Mogilyov, Avstriyanın Lints, Rumıniyanın Pleşti, Qazaxıstanın Aktau və başqa şəhərlərə çevrilən dostluq münasibətlərinin Sumqayıt şəhərinin sosial-iqtisadi mədəni, texniki imkanlarının genişlənməsinə münbit şərait yaratmasının təhlili müəyyən nəticəyə gəlməyə zəmin yaradır.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın yekunları şərh edilərək elmi-nəzəri ümumiləşdirmələr aparılmışdır.

Sonda verilmiş **"Əlavələr"** hissəsində Azərkimya Dövlət Şirkətinin tərkibinə daxil olan müəssisələrin idxal-ixrac əməliyyatlarını və eyni zamanda, idman əlaqələrini əks etdirən göstəricilər cədvəllər şəklində verilmişdir.

---

[1] Bağırov V. Öncül yerimizi saxlayacağıq. Xalq nəzarəti jur., 2004, dek. № 3, s.38.

[2] Sumqayıt Şəhəri Təhsil Şöbəsinin cari arxivi.

[3] Sumqayıt Özəl türk liseyinin cari arxivi. Dünya Beynəlxalq Olimpiada və layihələrdə iştirakı 2001-2005-ci illərin yekunları üçün hazırladığı xüsusi məlumat.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində əksini tapmışdır:**

1. "Azərbaycan Respublikasının Beynəlxalq və mədəni əlaqələrinin inkişafında Sumqayıt şəhər potensialının rolu". "Tarix və onun problemləri", 2009 , № 4, s. 185-189.
2. "Sumqayıt mədəniyyətinin Azərbaycanın beynəlxalq-mədəni əlaqələrində yeri". "Tarix və onun problemləri". 2010, № 4, s. 111-115.
3. "Внешние связи муниципалитета города Сумгаита в 2000-2004 гг". "Журнал научных публикаций Аспирантов и докторантов", "Редакция журнала публикаций аспирантов и докторантов", Россиская Федерасия, февраль 2010, №2, с.162-164
4. "Azərbaycanın xarici iqtisadi əlaqələrində Sumqayıt şəhərində yerləşən Etilen-politen zavodunun rolu (1996-2005)", "Azərbaycan Pedaqoji Universitetinin Xəbərləri", Bakı 2010, № 4, s. 158-166.
5. "Sumqayıtdakı Sintez Kauçuk (SK) zavodunun Azərbaycanın xarici-iqtisadi əlaqələrində rolu (1998-2005-ci illər)", "Dirçəliş – XXI əsr". 2012, № 1-2,(164-165. ), c. 192-201
6. "Sumqayıtdakı Sintez Kauçuk (SK) zavodunun, Azərbaycanın xarici-iqtisadi əlaqələrində rolu (1998-2002-ci illər)", AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpasının 20 illiyinə həsr etdiyi "Azərbaycan Respublikası uğurlar və perspektivlər", beynəlxalq elmi konfransın materialları. Bakı, 2011 (noyabr), s.265-270.
7. Экономические и культурные связи муниципалитета города Сумгаита (2000-2004 гг.).// Кавказ и мир. Международный научный журнал. Тбилиси, 2014, № 18. s 101-104

**У.И.Гулиева**

## Участие Сумгаита в международных культурно-экономических связях Азербайджанской Республики (1991-2005 гг.)

## РЕЗЮМЕ

Международные связи между государствами на основе принципов взаимной выгоды, культурно-экономического и политического потенциала одного из промышленных городов Азербайджана Сумгаита приобретает актуальность на современном этапе.

Представленная к защите диссертационная работа состоит из выступления, двух глав, 4 параграфов, заключения, списка использованных источников и литературы, а так же таблиц.

В выступлении обосновываются актуальность темы, степень изученности, цель и задачи, хронологические рамки, научная новизна, практическое значение.

**В первой главе диссертации** «Международные культурно-экономические связи Азербайджанской Республики и Сумгаита», состоящей из двух параграфов, в первом параграфе под названием «Характерные особенности международных связей Азербайджанской Республики» после восстановления 18 октября 1991-го года государственной независимости Азербайджанской Республики раскрываются специфические особенности заключения политического, экономического, научно-технического и культурного сотрудничества Сумгаита со многими государствами.

**Во 2-м параграфе I главы** «Культурно-экономический потенциал Сумгаита и возможности его выхода на международную арену» излагается необходимость создания города Сумгаита, его потребность в расширении культурно-экономического потенциала, а с целью установления международных связей с другими государствами.

**Во второй главе диссертации «**Основные направления участия города Сумгаита в международных культурно-экономических связях Азербайджанской Республики», состоящей из 2 параграфов, в **1-м параграфе** «Сумгаит и внешние связи» на основании конкретных фактов анализируются обмен импортно-экспортных операций, между

различными промышленными предприятиями Сумгаита и многими государствами мира в 1991- 2005 гг.

**Во 2 параграфе этой главы** «Участие Сумгаита в культурных связях Азербайджанской Республики» роль Сумгаита в различных сферах культуры и международных связях Азербайджана раскрывается на основании важнейших фактов.

В диссертации анализируются создание Сумгаитом благоприятных условий для дружеских отношений между такими городами как Людвигсхафен-Германии, Чучоу-Китайской Народной Республики, Черкасск-Украины, г.Бари и Генуи-Италии, Джейхан-Турции, Рустави-Грузии, Могилёв-Беларуси, Линтс-Австрии, Птешти-Румынии, Актан-Казахстана и др., а также расширение Сумгаитом социально-экономических, культурных и технических возможностей.

**В диссертации** в таблицах отражены показатели, связанные с импортом и экспортом Сумгаита.

**В заключении** автором подытожены обобщения, касающиеся исследования.

**Guliyeva Ulduz İsmikhan**

## Sumgait's participation in the foreign economic and cultural relations of the Azerbaijan Republic (1991-2005)

## SUMMARY

The investigation of economic and cultural potential of Azerbaijan for establishing relations with foreign countries under the principle of mutual profit altains urgency from the point of view of economic and political importance.

The research work consists of introduction, 4 paragraphs which contain 2 chapters, conclusion, the list of literature and appendixices.

The urgency of the subject (theme), degree of its use, its purpose and duties, scientific innovations and its importance are grounded in the introduction.

**The first chapter** of the dissertation is called "the international economic and cultural relations of the Azerbaijan Republic and Sumgait". In its first paragraph which is called "The characteristic features of the international relations of the Azerbaijan Republic" is spoken about the specific features of the foreign economic relations of our government, the signing of treaties with many countries of the world, political, economic, scientific –technical and cultural cooperation with forign countries after the declaration of the independence of the Azerbaijan Republic on the $18^{th}$ of October 1991.

**In the second paragraph** is explained the importance of the formation of Sumgait, its economic cultural potential, its getting into the international economic and cultural sphere, at the same time is shown the attitude to this matter.

**In the second chapter** - "Sumgait and foreign relations" is investigated differend kinds of industrial enterprices which are situated in the city and their import-export operations with the majority of the countries of the world in 1991-2005s.

All these are analised carefully in this chapter. The paragraph "the participation of Sumgait in cultural relations of the Azerbaijan Republic" is investigated that Sumgait plays an important role in different spheres of the culture of the Azerbaijan Republic. These are proved with neat facts.

The author analyses the exponding of Sumgait's friendhip and cooperation, social-economic, cultural-technological opportunnities with foreign cities, such as ludvigshaten (Germany), Çucou (China), Cerkassk (Ukraine), Bari and Genuya (Italy), Ceyhan (Turkey), Rustavi (Ceogia), Magilyov (Belarus), Lints (Austria), Ptesti (Romania), Aktau (Kazakstan) and others.

At the end there are given 16 sheduled materials about Sumgait's import-export indicators.

**In conclusion** the autor sums up her investigation and generalization of all her research study.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им.А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**УЛДУЗ ИСМИХАН гызы ГУЛИЕВА**

# УЧАСТИЕ СУМГАИТА В МЕЖДУНАРОДНЫХ ЭКОНОМИЧЕСКИХ и КУЛЬТУРНЫХ СВЯЗЯХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1991-2005 гг.)

Специальность: 5503.02 – Отечественная история

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2015**